


Göylərə imzasını atan ixtiraçı

# Səlcuq Bayraqdar




Zekiye Çoban

Göylərə imzasını atan ixtiraçı

# Səlcuq Bayraqdar

Zekiye Çoban

ÇAF

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 121544

Çaf.

Gəncliyə Yardım Fondu

YTB

T.C. KÜLTÜR VE TURİZM BAKANLIĞI
YURTDIŞI TÜRKLER VE AKRABA TOPLULUKLAR BAŞKANLIĞI

Bu kitab, Türkiyə Cümhuriyyəti Mədəniyyət və Turizm Nazirliyi Türkiyənin Xaricdə Yaşayan Türklər və Əqraba İcmalar İdarəsi (YTB) və Gəncliyə Yardım Fondunun (GYF) iş birliyi ilə həyata keçirilən "Hər Uşaq Bir Çinardır" layihəsi çərçivəsində hazırlanmışdır.

84(5Түк) + 68.52(5 Түк)
Ç 67

Kitabın Orjinal Adı:
Göklere İmza Atanlar
SELÇUK BAYRAKTAR

Müəllif:
Zekiye Çoban

Nəşrə Hazırlayanlar:
Dr. Abbas Qurbanov
Ayşegül Sözen Dağ

Anadolu Türkcəsindən Azərbaycan Türkcəsinə uyğunlaşdıran:
Mehriban Əbdürrəhimova

Redaktor:
Əziz Sultan

Rəssam:
Manal Reda Hamed

Dizayner:
A. Hamdi Kapkıner
Azər İbrahimov

Bu kitabın ilk nəşri Kaşif Çocuk Yayınları tərəfindən həyata keçirilmişdir.

Kitabın səsli versiyasını www.usaqkitabi.az saytından dinləyə bilərsiniz.

Bakı-2022; İpəkyolu Nəşriyyatı: 324-082
İSBN: 978-625-7003-44-5

Bakı Şəhəri Səbail Rayonu
Cəfərov Qardaşları, 16
Mobil: (+994 50) 302 90 08
Web sayt: www.ipekyolunesriyyati.az
Elektron poçt: ipekyoluneshriyyati@gmail.com

## HÖRMƏTLİ OXUCU,

Göylərə imzasını atan ixtiraçı Səlcuq Bayraqdar adlı kitabımız uşaq ədəbiyyatı sadəliyi ilə sizə, yerli və milli pilotsuz uçuş aparatlarının inkişafına rəhbərlik edən Səlcuq Bayraqdarın elmi fəaliyyətlərindən və təşəbbüskar tədqiqatlarından bəhs edir.

Kitabımızda 2000-ci illərin əvvəllərindən dizayn və inkişaf etdirdikləri pilotsuz uçuş aparatları ilə Türkiyə aviasiya tarixində parlaq qapılar açan Səlcuq Bayraqdar və ailəsinin həyat hekayəsindən hissələrlə tanış olacaqsınız. Vətənpərvərliyi, zəhməti, fədakarlığı və qətiyyəti ilə həyatını ölkəsi üçün texnologiyanın inkişafına həsr edən Bayraqdar ailəsinin hekayəsi oxucularımızın dünyasında geniş üfüqlər açacaq.

Uşaqlıq və gənclik dövründə olan oxucuların müasir texniki tərəqqinin təsiri ilə yerli texnologiyamızdan xəbərdar olaraq ixtiralara həvəs göstərməsi böyük əhəmiyyət kəsb edir.

Səlcuq Bayraqdar mühəndislik sahəsindəki fəaliyyətləri və əldə etdiyi texnoloji nəaliyyətlərlə dövrümüzün uşaqları və gəncləri üçün gözəl nümunədir.

Səlcuq Bayraqdarın SPUA, HPUA, Cəzəri və Bayraktar KIZILELMA adlı pilotsuz uçuş aparatları üzərindəki inkişaf fəaliyyətini milli bir texnologiya hərəkəti və xarici asılılıqdan qurtulmaq üçün böyük addımlar kimi xarakterizə edə bilərik.

Məqsədimiz; elm aləmində böyük zəhmət sərf edən, mavi səmaları Türkiyənin ay-ulduzlu bayrağı ilə bəzəyən

Səlcuq Bayraqdarın əzmini, fədakarlığını, zəhmətini və nailiyyətlərini izah etmək; milli texnoloji tədqiqatlarının unikal və vacib olduğunu vurğulamaqdır.

Kiçik yaşlarından aviasiya həvəsi ilə böyüyən və ailəsi ilə birlikdə səmaya imza atan Səlcuq Bayraqdar; xoşbəxtdir ki, valideynlərindən aldığı ilhamla milyonlarla gənci elm və texnologiya ilə bir araya gətirərək güclü Türkiyənin parlaq gələcəyi üçün əzmlə fəaliyyətlərini davam etdirir.






- Nə edirsən, oğlum? – deyə anam soruşardı.

- Göy üzünə imza atıram ana, deyirdim həyəcanla. Bax görürsən, oradadır! Elə bil görürmüş, görünürmüş kimi şəhadət barmağımla göy üzünə çəkdiyim böyük imzamı göstərərdim.

Sevincdən anamın gözləri parıldayardı. İstəyirsən sən də gəl, deyərdim. Anam xətrimə dəyməyərək yanıma gələrdi. Mənim imzamın yanına o da imza atardı. Onun imzası sanki bütün səmanı əhatə edirdi. İmkan olduqca atam və qardaşım Haluq da bizim yanımıza gələrdi. Belə vaxtlarda hiss etdiyim sevincin həddi-hüdudu olmazdı.

Göy üzü mənim uşaqlıq dostum olub. Qanad çalaraq səmada uçuşan quşlara və xəyallarımı uçuran təyyarələrə baxmaq məni həmişə çox həyəcanlandırırdı. Ucsuz-bucaqsız göylərdə uçan quşlarla təyyarələri izləmək ən böyük əyləncəm idi. Təqib etdiyim təyyarələr elə bil xəyallarımızı uçururdu: anamın, atamın, qardaşlarımın, mənim... Qollarımı iki yana açıb var gücümlə qaçaraq çatmağa çalışdığım təyyarələr...

O təyyarələr mənim oyunum, oyuncaqlarım və bütün həyatım idi.

Hekayəm 1979-cu il oktyabrın 7-də İstanbulun Sarıyer rayonunda başladı. Atam Trabzon, anam isə Kastamonu şəhərindəndir.



Ana və atamın 3 oğlan övladının ikincisi olaraq dünyaya gəlmişəm. Biz; Haluq, Səlcuq və Əhməd qardaşları... Özünü dövlətinə və millətinə həsr edən ata-anamızın ölkəmizi sevən üç övladı.

Uşaqlığımız göylər dolusu xəyallarımızı böyüdərək keçdi. “Pambıq şəkəri” kimi şirin ağ buludlar ən yaxın oyun yoldaşlarımız idi. Xəyallarımızda o buludlarla cürbəcür fiqurlar düzəldirdik. Kiçik barmaqlarımla böyük təyyarələr çəkirdim. Göy üzünə diqqətlə baxır, oradan imzamı əskik



etmirdim. Mənim bu halım bəlkə də məni görən quşlara qəribə gəlirdi. Heç nə olmaz, mən sevərək işimə davam edirdim.



Dünyanın kim bilir hansı bucağına xəyallarımı toxum kimi səpdilər, dostum quşlar...

Sarıyer ibtidai məktəbini bitirdikdən sonra 1997-ci ildə "Robert" kollecindən məzun oldum. Sonra İstanbul Texniki Universitetində Elektronika



və Rabitə Mühəndisliyi üzrə oxudum. Amerikada Pensilvaniya Universitetində pilotsuz uçan aparatlar üzrə magistr təhsili aldım. Bununla kifayətlənmədim. Aldığım təklifi dəyərləndirərək Masaçusets Texnologiya İnstitutunda "Dronların aqressiv manevr nəzarəti" sahəsində ikinci magistr təhsili aldım.

Bizə kiçik yaşlarımızdan aviasiya həvəsi aşılayan atam, xaricdə aldığım təhsili bitirdikdən sonra 2007-ci ildə vətənə qayıtmağıma çox sevindi. Niyə sevinməsin ki? Hazırlamağa başladığımız, xəyalını qurduğumuz pilotsuz uçan aparatları tezliklə Türkiyəmizə qazandırmalıydıq. İçimizə sığmayan böyük bir həyəcanla layihələrimiz üzərində işləyirdik.

Bəs qısaca PUA dediyimiz pilotsuz uçan aparatlar niyə bu qədər əhəmiyyətli idi? Bu uçan vasitələrdən müşahidə, kəşfiyyat, məhv etmək kimi hərbi məqsədlər; habelə kənd təsərrüfatı, video çəkilişi, yanğın söndürmək kimi məqsədlərlə istifadə edilir.



Xüsusilə də, vətənin müdafiəsində əsgərlərimizin, təhlükəsizlik qüvvələrimizin tək bir dırnağına da zərər dəyməsini istəmirik. Bu aparatları xarici ölkələrdən almaq həm çox bahalı olurdu, həm də nəzarət edə bilmək üçün proqram təminatı hökmən bizə aid olmalıydı. Ona görə də proqram təminatı da daxil olmaqla yerli və milli pilotsuz uçan aparatları biz istehsal etməliydik.



Təbii ki, düzəldə bilməzsiniz, uçura bilməzsiniz, istehsal edə bilməzsiniz deyənlər də çox oldu. Amma biz ailə olaraq və komanda olaraq bu kimi sözlərə qarşı qulaqlarımızı tıxamış, bacara biləcəyimizə inanmışdıq. Ona görə də rahatlığı tərk edərək, gecəmizi gündüzümüzə qataraq dayanmadan əzmkarlıqla, sevgiylə, həvəslə fəaliyyətlərimizə davam etdik.

Hər dəfə göy üzünə baxanda günü-gündən böyüyən xəyallarımızın həyata keçdiyini gördük. Bir də ən yuxarılarda heybətlə dalğalanan ay-ulduzlu qırmızı bayrağımızı... Onun məhəbbəti damarlarımızda dəlicəsinə axdı, bütün varlığımızı bürüdü. Göylərə ən layiq olan o idi. Qəlbimiz onunla dolub-daşdı. Sevgisi ilə ümidə doğru irəliləyir, yorulmurduq. Əslində, bütün səylərimiz ay-ulduzlu bayrağımızın səmalarda əbədi dalğalanması üçün idi. Tam müstəqil, böyük Türkiyə üçün.

2000-ci illərdə Amerikada təhsil aldığım müddətdə ilk dəfə pilotsuz təyyarələrlə sınaq uçuşumu həyata keçirəndə sevincimin həddi-hüdudu yox idi.

İlk dəfə helikopterlə aqressiv manevr etmək kimi qabiliyyətləri yerinə yetirmək məni, ailəmi və komandamı daha da həvəsləndirmişdi. Mən ölkəm üçün böyük ümidlərin qapısını açmışdım.

Artıq, bir vaxtlar kağızdan və taxtadan düzəldərək xəyalımızda uçurduğumuz təyyarələr yox idi. Onun əvəzinə rəhbərlik etdiyimiz türk mühəndislərin hazırladıqları yüksək təchizatlı, yerli və milli pilotsuz uçuş aparatlarımız görünməyə başlamışdı.

Amerikada doktoranturamı bitirmədən bir az əvvəl vətənə qayıdanda atamın təşkilatçılığı ilə Türkiyə Hərbi Hava Qüvvələri ilə intensiv danışıqlarımız oldu. Pilotsuz uçuş aparatlarını ölkəmizə qazandırmaq üçün gecə-gündüz işləyirdik. Bizi Şırnak rayonuna dəvət edən şəhid polkovnik-leytenant Melih Gülovanı necə unutmaq olar? Biz layihələrimizdən söhbət açanda sevincindən gözləri dolmuşdu.

Atamın rəhbərlik etdiyi bu böyük layihədə aylarla Türkiyənin ilk fırlanan qanadlı, pilotsuz helikopterini uçurmaq üçün gecə-gündüz çalışdıq.



Dağlarda əsgərlərimizlə çiyin-çiyinə verərək bu böyük xəyalımızı həyata keçirmək arzusuyla qarda, qışda, hər cür çətin şəraitdə böyük inam və qətiyyətlə aylarla işlədik. İşlədik, elə hey işlədik, dayanmadan işlədik. Yorulub əldən düşüb arxası üstə yerə uzananda gözümüz yenə də ucsuz-bucaqsız səmada olurdu. Uğurla uçuracağımız pilotsuz uçan aparatlar sanki səmanı görünməz edirdi. Bu xəyalımız bizi heç vaxt tərk etmədi. Müstəqil, qüdrətli Türkiyənin ay-ulduzlu al bayrağı göylərə yüksələrək ən yuxarıda dalğalanırdı. Göylərə ən çox o yaraşırdı.

Atam həmişə bizim liderimiz, rəhbərimiz, bələdçimiz oldu. Bu böyük uğur hekayəsinin həqiqi qəhrəmanı odur. 20 il bundan əvvəl pilotsuz uçan aparatları hazırlamaq üçün işə başlayanda, "Mümkün deyil. Biz edə bilmərik. Ancaq əcnəbilər düzəldə bilər" deyənlərin inadına inandığı və həqiqət bildiyi düz yolda dik yeridi. Zərrə qədər dürüstlükdən, namusdan vaz keçmədən böyük arzusunu reallaşdırdı. O, bu ruhu hamımıza aşılayıb.



Onun həyatına toxunan işıq bizim yolumuzu da işıqlandıracaq qədər böyük idi. Atam güvvətli inamı, qətiyyətli və həssas işləri ilə həmişə qarşımızdakı, yolumuzdakı ən böyük nümunəmiz olub. Hər şey bir tərəfə, bizim canımızdan da dəyərli atamızdır o. Bir tərəfdən də



qardaşımız, dostumuz, yoldaşımız idi. İlham mənbəyimiz, bələdçimiz, ən yaxın mübarizə və yol yoldaşımız idi.

Aviasiyaya böyük marağı olan atam mühəndis-mexanik idi. Biz hələ uşaq ikən, 1984-cü ildə avtomobil sənayesi üçün yerliləşdirmə təşəbbüsünə töhfə vermək üçün "Baykar Makina" fabrikinin təsisində iştirak edib. Atam həmin günlərdən bəhs edəndə bir drellə işə başladığını deyirdi. Sadəcə bir drel! Daha sonra Baykarda bir çox orijinal cihaz dizaynı və istehsalı, hissə emal aparatlarının layihələndirilməsi proseslərini idarə etdi. Sonralar investisiya və fəaliyyətlərimiz aviasiya texnologiyası sahəsinə istiqamətləndi. Biz hələ dünyaya gəlməmişdən əvvəl anamın da Sənaye İnkişaf Bankında kompüterdə proqramlar hazırlamış olması bizi daha da gücləndirdi.

Bütün ailə işləyirdik. Anam, atam (yaşlı olmasına baxmayaraq) bütün ailə fabrikdə yatıb dururduq. Ailə qurana qədər mənim evim yox idi. İllərim dağlarda, konteynerlərdə, anqarlarda, dar otaqlarda keçdi.

Dizayn etdiyimiz təyyarələrdən yüz metr belə uzaqda qalmaq istəmirdim. Gözüm həmişə onların üzərində idi. Onlar mənim xəyallarım, arzularım, işıqlı gələcəyim idi. Onların uğurla uçmasını görməyin sevinci və qüruru xalq olaraq hamımıza məxsus idi.

2016-cı ildə Sümeyyə Ərdoğan xanımla ailə həyatı qurdum. Evləndikdən sonra da fəaliyyətlərimi böyük səylə davam etdirdim. Allah bizə "Aybikə Canan" adını qoyduğumuz bir qız övlad bəxş etdi. Həyatımız onunla daha da gözəlləşdi. Kiçik halıyla böyük xoşbəxtliyimizə ortaq oldu.

Dizayn etdiyim ilk "Taktiki PUA" kodunu TC-ERB qoyaraq, ömrünü Türkiyənin inkişafına həsr etmiş Nəcməddin Erbakana ithaf etdim. Bu ixtiram 2014-cü ildə ilk uçuşunu həyata keçirəndə komanda və millət olaraq böyük qürur hissi keçirmişdik.



Böyük qardaşım Haluq Bayraqdar da aviasiya texnologiyası sahəsində bizimlə fədakarlıqla işləyirdi.





Aviasiya texnologiyası istiqamətində canla-başla çalışan biz üç qardaşın qulağında daim anamızın səsi vardı:

"Oğullarım, hər cür manealərə və təzyiq siyasətlərinə baxmayaraq inkişaf etdirdiyimiz bu texnologiyanı türk ordusunun şərəfli övladlarının xidmətinə verməsəniz, sizi uğursuz hesab edəcəyimi, bunu süd haqqı kimi bilməyinizi istəyirəm".

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 121544

Anamın bu nəsihəti heç vaxt yadımızdan çıxmadı. Bu nəsihət həmişə qırılma nöqtəsinə gəldiyimiz çətin anlarda bizim dözümümüzü artırdı. Anamın dəstəyi və duaları yolumuza işıq salan mayak kimidir. Gördüyümüz işlərdən yaxşı nəticələr əldə etmək üçün həmişə bizi həvəsləndirdi.

Ailəm və komandamızla həyatımızı həsr etdiyimiz böyük xəyalımız reallaşmış və milli aviasiya sənayesini beynəlxalq səviyyəyə çatdırmağa nail olmuşduq.

Uşaqlıqdan qalan pilotluq xəyalım da hədər olmadı. 2017-ci ildə başladığım pilotluq məktəbini uğurla başa vurdum. Artıq mən də atam kimi xüsusi pilotluq lisenziyası almışdım.

Pilotsuz uçan aparatları inkişaf etdirmək səylərimiz davam edərkən növbə uçan avtomobil ixtira etməyə də gəldi. Hər halda "Cəzəri" desəm, yadınıza düşəcək.



Bəs Cəzərinin kim olduğunu bilirsiniz? XII əsrdə yaşamış, bir çox ixtiraları olan böyük alimdir. Fizikaçı və mühəndis olub. Həmçinin tarixdə ilk robotun ixtiraçısı olmuş Cəzərinin adını, əsrlər sonra böyük ixtiramıza da qoyduq. Bu çox yaxşı oldu.



Türkiyənin ilk uçan avtomobili "Cəzəri"nin ilk görüntüləri paylaşıldığı vaxt misilsiz bir həyəcan hiss etdik. Onun təqdimatını keçirdiyimiz zaman özümüzü göylərdə hiss edirdik. Müdafiə sənayesinin xaricində milli və orijinal texnologiya istehsal etmək fəaliyyətlərimizi davam etdirərək Türkiyənin ilk uçan avtomobili CƏZƏRİ-ni inkişaf etdirmək arzusundayıq.

Robot texnologiyasının müstəqil inkişafı ilə əslində bizim bütün səyimiz, gələcəkdə inqilab edəcək uçan avtomobil texnologiyasını istehsal etməkdir. İndilik Cəzərinin prototipi (ilk nümunəsi) var. Bu, böyüdülmüş bir drondur. Onun uçan avtomobil olması üçün istifadə etdiyimiz sistemləri bəlkə də 15 il daha inkişaf etdirmək lazımdır. Gələcəkdəki uçan avtomobillər üçün bu gün də fəaliyyətlərimiz sürətlə davam edir.

Gələcəkdə uçan maşınlarla səyahət edəcəyimiz günlərdə hiss edəcəyimiz xoşbəxtliyi və qüruru bugünkü fədakar əməyimizlə əldə edəcəyik.

"Kiminsə xaricdən asılı olmaq məcburiyyəti bizim millətimiz qarşısındakı məsuliyyətimizdən üstün ola bilməz", – deyirdi atam. Elə də oldu. Türkiyə indi tamamilə milli və yerli istehsalları ilə texnologiya sahəsində böyük bir addım atır.

2003-cü ildə Baykar daxilində Mini PUA ilə başlayan səyahətimizdə ilk olaraq ölkəmizin ilk pilotsuz uçuş aparatını hazırladıq. Daha sonra da aviasiya sahəsində inkişaf etmiş ölkələrin də almaq üçün növbəyə dayandığı, türk mühəndislərin orijinal dizaynı olan "Bayraktar TB2" SPUA-sını ölkəmizə qazandırdıq. Bundan sonra da onun inkişaf etmiş halı – Bayraktar TB3 SPUA... Gələcəkdə qısa enmə zolaqlarında eniş və uçuş edə biləcək; 24 saat havada qalma qabiliyyəti və qatlana bilən qanadları ilə çox yüksək hündürlüklərdə fəaliyyət göstərə biləcək. Bu çox həyəcan vericidir, elə deyilmi?





Milli texnologiya ilə güclü və müstəqil müdafiə sənayesi millətlər, dövlətlər üçün olduqca əhəmiyyətlidir.

Bəs "Bayraktar AKINCI"dan xəbəriniz varmı? Uçan balıq deyim... Bəlkə yadınıza düşər?

Bayraktar AKINCI, hücum edən pilotsuz uçan aparatımız. Özünəməxsus burulmuş qanad quruluşunun quşdan çox uçan balığa bənzəməsi ilə diqqət cəlb edir. Konseptual dizaynı atam Özdəmir Bayraqdara məxsusdur. PUA liqasında Türkiyəni dünyadakı ilk üç ölkə arasına daxil edən Bayraktar AKINCI, 6 ton uçuş ağırlığına malik böyük bir təyyarədir. Bir ton yarım yük daşıma qabiliyyəti, tamamilə bizim mühəndis komandamız tərəfindən hazırlanmış yüzdən çox kompüter və süni intellekt proqramı ilə strateji missiyanı yerinə yetirəcəkdir. Onu göy üzündə görmək çox gözəldir!

Uçan balığımız Bayraktar AKINCI-nı inkişaf etdirərək 2021-ci il avqustun 29-u tarixində Türkiyə Silahlı Qüvvələrimizə təhvil verdik.

Həyata keçirdiyimiz işlərin əvvəlində Türkiyənin ilk yerli və milli pilotsuz uçuş aparatı olan Bayraktar Mini PUA ilə 2014-cü ildə Türkiyə Silahlı Qüvvələri arsenalına daxil olan, dünyada 20 ölkəyə ixrac edilən və bu gün minlərlə saat havada qalaraq öz sahəsində dünyanın ən yaxşısı olduğunu sübuta yetirən Bayraktar



TB2 S/PUA sistemi olduğunu da bildirmək istəyirəm.

Bəzən gördüyümüz işləri şeir yazmağa bənzədirəm. Qəlbim ən ülvi hisslərlə dolanda Akıncılar marşını oxuyuram:

"Min atlı, axınlarda uşaqlar kimi şəndik,
Min atlı o gün div kimi bir ordunu yendik!"





Təbii ki, ailəmizin ən gənc və ən iri üzvü Bayraktar KIZILELMA-dan söhbət açmamış keçməyəcəyəm. Bayraktar KIZILELMA, bizim əldə etmək istədiyimiz böyük hədəflərin rəmzi olduğu üçün bu adın ona çox yaraşdığını fikirləşirik.

Bayraktar KIZILELMA, pilotlu təyyarələrlə birgə hərəkət edə bilən yüksək qabiliyyətli pilotsuz sistemdən ibarətdir. Yerli və milli imkanlarla hazırlanan Bayraktar KIZILELMA, 2023-cü ildə ilk uçuş testini həyata keçirəcək. Bayraktar KIZILELMA, malik olduğu süni intellekt sistemi ilə türk müdafiə texnologiyalarının çox kritik həddə çatdığını göstərir.



Həmçinin, müdafiə sənayesinin xaricində başqa sahələrdə də ixtiralarımız, istehsallarımız olub.

2019-cu ilin dekabrından etibarən bütün dünyaya yayılan koronavirus pandemiyasına qarşı Türkiyədə başladılan mübarizəyə liderlik etdik. İnkişaf etdirdiyimiz yerli reanimasiya aparatları və respiratorlar Türkiyədən dünyanın bir çox ölkəsinə ya ixrac edilib, ya da hədiyyə edilib.

Türk texnalogiyası BIOSYS və Arçeliklə əməkdaşlıq edərək beş illik tətqiqat və araşdırmadan sonra tibbi ventilyator cihazını istehsal etdik. Firma ilkin olaraq 5000 yeni tibbi ventilyatorların istehsalını hədəfləyir. BIOSYS, Baykar, Aselsan və Arçelik mühəndisləri bu cihazın kütləvi istehsalı üçün birlikdə işləyir. Ventilyatorlar bütün ölkə ərazisində Covid-19 xəstələrini müalicə edən xəstəxanalarda istifadə edilməsi məqsədi ilə Türkiyə Səhiyyə Nazirliyinə bağışlandı.




Baykar tərəfindən milli imkanlarla orijinal hazırlanmış Bayraktar TB2 SPUA-ların Qarabağın Ermənistanın işğalından azad edilməsinə verdiyi töhfələrə görə Azərbaycan Respublikası tərəfindən "Qarabağ" ordeni ilə təltif edilmişəm.

Ordenim 2021-ci il aprelin 1-də Bakıda keçirilən mərasimdə qardaş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən mənə təqdim olunub. Bu ordenlə sərhədləri aşan bir millətin qardaşlığı daha da gücləndi. Qəlblərimiz bir daha birləşdi.








Bir az da Teknofest barədə danışmaq istəyirəm. Doğrudan da, aranızda Teknofesti eşitməyən varmı?

Aviasiya və kosmosa olan həvəsi bütün cəmiyyətə yaymaq məqsədi ilə ölkəmizin ilk və yeganə aviasiya və kosmos festivalı olaraq təşkil etdiyimiz TEKNOFEST böyük marağa səbəb oldu.

Teknofestin birincisi 2018-ci ildə İstanbul Hava Limanında, ikincisi isə 2019-cu ildə Atatürk Hava Limanında keçirilib. 2020-ci ildə Qaziantepdə keçirilib. İnsanı uçuran bu festival 2021-ci ildə İstanbul Atatürk Hava Limanında yenidən texnologiya ulduzlarını bir araya gətirdi. 2022-ci ildə Azərbaycanda da keçirilən Teknofest əlamətdar hadisə oldu.

Həyatın hər sahəsinə toxunan Teknofest onlarla müsabiqə ilə bu gün gələcəyin texnologiyalarını inkişaf etdirənlərin festivalına çevrilib. Onlarla şəhərdə minlərlə tələbə Eksperimental emalatxanalarla texnologiyanı təcrübədən keçirməyə davam edir. Texnologiya ulduzları yetişdirmək, gənclərimizi elmə yönəltmək səylərimiz səngimir.

Məqsədimiz "Milli Texnologiyanın İnkişafı" olduğu üçün "T3" vəqfini qurduq. Vəqfin tərkibində texnologiyaya həvəsi və istedadı olan müəyyən yaş qruplarından insanları araşdırma və istehsal sahələrinə təşviq edirik.





Elm və texnologiya ilə yanaşı, mədəniyyətimizin dəyərləri və gözəl əxlaqı ilə təchiz edilmiş, bəşəriyyətə faydalı gənclər yetişdirmək bizim ən böyük arzumuzdur. Bütün səylərimiz gənclərimizə bu istiqamətdə yol açmaqdır.

Mən gənc qardaşlarıma tövsiyə edirəm ki, tam müstəqil və çiçəklənən ölkə üçün milli və unikal texnologiyalar inkişaf etdirsinlər, etik və əxlaqa riayət edərək bu günün deyil, sabahın yarışına hazırlaşsınlar. Bütün bunlara diqqət etsək, dünyada ən yaxşısına nail ola bilərik.

Texnologiya fəaliyyətlərimiz tam sürətlə davam edərkən, 18 oktyabr 2021-ci ildə ailə və komanda olaraq həyatımızın ən çətin və ağrılı gününü yaşadıq. Rəhbərimiz və bələdçimiz olan çox dəyərli atamız Özdəmir Bayraqdar 72 yaşında dünyasını dəyişdi. O, bütün həyatı boyu misilsiz vətənpərvərliyi, möhkəm əqidəsi, zəhmətkeşliyi ilə həmişə bizə örnək oldu. O, həyatı boyu mühəndislik istedadını müasir texnologiyalarla birləşdirərək milli və orijinal dizaynlar yaratdı. Göylərə böyük bir imza atdı. O, ölkəsi üçün yeni bir yol açdı. O, arxada onun yolunu davam etdirəcək, vətən sevgisi, bayraq sevgisi ilə təchiz edilmiş, elmlə silahlanmış yüz minlərlə gənc qoydu.

Uşaqlıqdan bəri xəyalını qurduğumuz, bu gün uğurla uçurduğumuz hava vasitələrinə belə deyirəm:






"Atamızın yadigarı, anamızın duası, şanlı mübarizədə şəhid olan mehmetciklərimizin və yol yoldaşlarımızın əmanətisən. "Səmalarda azad və müstəqil olacağam" deyən millətimizin ifadəsisən".

Hekayəmiz burada bitmir, davam edir. Anamızın ağ südü bizə halal oldu. Gözlərimiz hələ də göydədir. Uşaq vaxtı balaca əllərimizlə atdığımız imzalar indi səmadan üzümüzə gülümsəyir. Ay-ulduzlu qırmızı bayrağımız səmada dalğalanır. Təyyarələrimiz bütün əzəməti ilə səmaları əhatə edib, müstəqil böyük Türkiyənin qüruru ilə uçur.

Atamızın yadigarı...

Anamızın duası...

Şəhidlərimizin əmanəti...

Nə biz boş dayanacağıq, nə də siz sahibsiz qalacaqsınız. Milli-mənəvi dəyərlərlə silahlanmış, elmlə təchiz edilmiş neçə-neçə igid gənclər bu bayrağı əldən-ələ ötürəcək. Ay-ulduzlu qırmızı bayraq həmişə şərəf və şan-şöhrətlə ən ucalarda dalğalanacaqdır.



# LÜĞƏT

AKINCILAR: Osmanlı dövlətinin hərbi qüvvələrinin tərkibində olan, sərhədyanı bölgələrdə xidmət aparan, Osmanlı dövləti ilə müharibə etmək istəyən dövlətlərə axınlar, basqınlar tərtib edərək onların döyüş əzmini qıran çox sürətli süvari dəstələr.

Dron: Foto, videoçəkilişlər etmək, müşahidə aparmaq və ya havadan zərbə endirmək üçün istifadə olunan pilotsuz uçuş aparatı.

HPUA (TİHA): Hücumçu pilotsuz uçan aparat.

KIZILELMA: Türk mifologiyasında Türklər və xüsusən də Oğuz Türkləri üçün onun haqqında düşündükcə uzaqlaşan və uzaqlaşdığı nisbətdə də cazibediciliyi artan ideallar və xəyalları simvolizə edən bir ifadədir.

Prototip: Hər hansı bir fikrin, ideyanın, ya da bir varlığın ilk halıdır.

PUA: Pilotsuz uçan aparat.

SPUA (SİHA): Silahlı pilotsuz uçan aparat.

TC-ERB: Nəcməddin Erbakana həsr edilmiş ilk TİHA-nın kodudur.

# ÖZÜMÜ DƏYƏRLƏNDİRİRƏM

**A. Aşağıda verilən suala müvafiq cavabı verin.**

1. Səlcuq Bayraqdar nə vaxt və harada dünyaya gəlib?

A) 1979 Ankara

B) 1975 İstanbul

C) 1980 Trabzon

D) 1979 İstanbul Sarıyer

2. Aşağıda göstərilənlərdən hansı biri qəhrəmanımızın təhsil aldığı məktəblərdən deyil?

A) İstanbul Texniki Universiteti Elektronika və Rabitə mühəndisliyi

B) Robert Kolleci

C) Marmara Universiteti Elektrik-Elektronika Mühəndisliyi

D) Pensilvaniya Universiteti



3. Qəhrəmanımız Səlcuq Bayraqdara aviasiya arzusunu kim aşılamışdır?

A) Qardaşı

B) Dayısı

C) Atası

D) Müəllimi

4. Əsərə görə göylərə ən çox nə yaraşır?

A) Təyyarələr

B) Ay-ulduzlu bayraq

C) Quşlar

D) Ulduzlar

5. İşləri çıxılmaz vəziyyətə düşəndə Bayraqdar qardaşlara nə kömək edirdi?

A) Qohumlarının dəstəyi

B) Müəllimlərinin yardımı

C) Analarının nəsihəti

D) Komanda yoldaşları

**B. Aşağıda yazılan cümlələrdən düz olanların əvvəlinə D, yanlış olanların əvvəlinə Y yazın.**

1. ( ) Səlcuq Bayraqdar dizayn etdiyi ilk "Taktiki PUA" kodunu TC-ERB qoyaraq, ömrünü Türkiyənin inkişafı mübarizəsinə həsr etmiş Nəcməddin Ərbakana ithaf etmişdir.

2. ( ) Bayraqdar qardaşlar ən çox səhiyyə sahəsində ixtiralar etmişdir.

3. ( ) Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2021-ci il aprelin 1-də Bakıda keçirilən mərasimdə Səlcuq Bayraqdara "Qarabağ" ordeni təqdim olunub.

4. ( ) Cəzəri XII əsrdə yaşamış, bir çox ixtiraları olan böyük alimdir.

5. ( ) 2021-ci ilin oktyabrında dünyasını dəyişən Özdəmir Bayraqdar milli və orijinal dizaynları ilə oğullarına rəhbər və bələdçi olmuş, aviasiya texnologiyası sahəsində yol açmışdır.



**C. Aşağıda göstərilən fikirləri müvafiq şəkildə birləşdirin.**

| | |
|---|---|
| 1. Uçan balıq | KIZILELMA |
| 2. Səlcuq Bayraqdarın qardaşı | Cəzəri |
| 3. Pilotsuz uçan aparatların ən yenisi və irisi | AKINCI |
| 4. Türkiyənin ilk və tək aviasiya festivalı | Teknofest |
| 5. Türkiyənin ilk uçan avtomobili | Haluq Bayraqdar |



## D. Fikirləşək, yazaq.

1. Səlcuq Bayraqdarı yaxından görmək imkanın olsaydı, ona hansı sualı verərdin?

..........................................................................................................

..........................................................................................................

..........................................................................................................

..........................................................................................................

2. Səlcuq Bayraqdarın anası barədə oxuyanda hansı hissləri yaşadın?

..........................................................................................................

..........................................................................................................

..........................................................................................................

..........................................................................................................

..........................................................................................................

3. Bayraqdar ailəsi əsasən hansı sahədə ixtiralar etmişdir?

..........................................................................................................

..........................................................................................................

..........................................................................................................

..........................................................................................................

..........................................................................................................



4. Özdəmir Bayraqdar öz övladlarına və ölkəsinin gənclərinə necə nümunə olmuşdur?

..........................................................................................................

..........................................................................................................

..........................................................................................................

..........................................................................................................

..........................................................................................................

5. Qardaşların və ailənlə birlikdə ölkənin gələcəyi üçün nə etmək istəyərdin?

..........................................................................................................

..........................................................................................................

..........................................................................................................

..........................................................................................................

..........................................................................................................

## QEYD



121544
00000000274034





Göylərə imzasını atan ixtiraçı

# Səlcuq Bayraqdar

Əlinizdəki kitabda 2000-ci illərin əvvəllərindən dizayn və inkişaf etdirdikləri pilotsuz uçuş aparatları ilə Türkiyə aviasiya tarixində parlaq qapılar açan SƏLCUQ BAYRAQDAR və ailəsinin həyat hekayəsindən hissələrlə tanış olacaqsınız.

Bayraqdar ailəsinin KÖKLƏRDƏN GÖYLƏRƏ uzanan zəhmət, fədakarlıq, əzm və həyatlarını Türkiyə üçün milli texnologiya hərəkatına həsr edilən hekayəsi vətən sevginizi alovlandıracaq.




**HƏDİYYƏDİR** pul ilə satılmaz

ipekyolu.neshriyyati
ipekyoluneshriyyati
ipekyolunesriyyati.az